# Qurtuluşumuz–əziz günümüz

(Əvvəli 3-cü səhifədə).

O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu nəhəng şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə getdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi. İndi inamla söyləyə bilərik ki, Heydər Əliyevin Gəncəyə səfəri vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. Ümummilli liderimiz Gəncədə baş verən hadisələrə münasibət bildirərkən demişdi: "Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və qanunu pozmuş, cinayətdə iştirak etmiş, cinayəti təşkil etmiş və hansı tərəfdən asılı olmasına baxmayaraq bütün adamlar qanun qarşısında məsuliyyət daşımalıdırlar". Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.

Dövləti olmayan xalq ölümə məhkumdur. Dövlətçilik xalqın "ölüm, ya olum" məsələsidir.

Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Dövlətimizin qorunub saxlanılması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, qurtuluş deməkdir! Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, hərbi, elmi-texniki, mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu başlandı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci ilin martında dövlət çevrilişi cəhdlərinə son qoyuldu, cəbhədə atəşkəsə nail olundu, ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi. Bu illərdə milli ordu quruculuğunda ciddi dəyişikliklər başladı. Ulu öndər fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının respublikaya, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişilməsinə nail ola bildi.

Ulu öndər Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərib. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq müqavilələrə imza atılmış və onların həyata keçirilməsinə başlanıb. Heydər Əliyevin təşəbbüsü ilə böyük siyasi məna kəsb edən bir sıra dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayıb.

Ümummilli lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var.

Hazırda Azərbaycan ulu öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlara imza atır. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı getdicə sürətlənir, həyatın bütün sahələrində, daxili və xarici siyasətdə uğurlarımız ilbəil artır.

Mən əminəm ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında birləşmiş Azərbaycan xalqı öz dövlət müstəqilliyini, respublikasını göz bəbəyi kimi qoruyacaq, onu daha da möhkəmləndirəcək, gələcəyə doğru inamla aparacaqdır.

**Aygün Məmmədova,**
**Heydər Əliyev Mərkəzinin böyük elmi işçisi.**

# 1993-cü il 15 İyun–Qurtuluş Gününün tarixidir

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam". Bu sözləri söyləyən dahi şəxsiyyət Heydər Əliyev 1993-cü ildə Azərbaycanı ikinci dəfə dünyaya bəxş etdi. Milli iftixarımız, xalqımızın böyük oğlu, XX əsrin dahisi, ümummilli lider Heydər Əliyev dövrümüzün siyasət nəhənglərindən biri kimi müasir dünya tarixində əbədi yaşarlıq haqqı qazanmışdır. Azərbaycan dövlətinin qurucusu, xalqın ən böyük güvənc yeri, inam mənbəyi, qüdrəti, şəxsiyyətilə seçilən, qeyri-adi istedada malik ulu öndər Heydər Əliyev vətənə, xalqa bağlı bir siyasət nəhəngi idi. Nurani siması, dərin zəka və istedadı ilə Azərbaycan tarixində yeni bir səhifə, yeni bir inkişaf, xətt üsulu yaratdı. Vətənin, xalqın ən ağır, çətin, böhranlı vaxtında özünü millətin hayına-harayına çatdırdı.

1993-cü ilə qədərki dövrlər hamımızın çox yaxşı yadındadır. Respublikada hərc-mərclik, özbaşınalıq, vətəndaş qarşıdurması bir tərəfdən, xəyanətkar erməni təcavüzü digər tərəfdən xalqı lərzəyə salır, taleyinin necə olacağını bu böyüklükdə millətin, xalqın sonunun nə ilə nəticələnəcəyini heç kim bilmirdi. İqtisadi, siyasi vəziyyət, dövran ağır və çətin idi. Xalq çox çaş-baş vəziyyətdə, qorxu, həyəcan içində ümidsiz halda yaşayırdı. Özbaşınalığın, ağır, dərin böhranın erməni işğalının baş alıb getdiyi bir vaxtda hər bir kəs ümidsiz halda yalnız ulu Tanrıdan kömək gözləyirdilər. Belə ağır bir vaxtda 1993-cü il iyunda xalqın tələbi ilə Heydər Əliyev Bakıya rəhbərlik üçün dəvət olundu. Bu cür çətin bir məqamda xalqın yeganə ümid, inam yeri yalnız və yalnız Heydər Əliyev idi. O, böyük bir insan, bacarıqlı siyasətçi kimi xalqın sönmüş ümidlərini, arzularını yaşamaq hisslərini özünə qaytardı. Hələ sovet dövründə yüksək dövlət idarəciliyində olan rəhbərlər, eləcə də müxtəlif millətlərdən olan siyasətçilər Heydər Əliyevin siyasi xadim kimi gücünə, imkanlarına, natiqlik istedadına, ensiklopedik biliyinə, qeyri-adi yaddaşına dövlət idarətmə qabiliyyətinə və yüksək mədəniyyətinə heyran olduqlarını açıq etiraf etmişlər. Elə bu gərgin, ziddiyyətli, sıxıntılı bir dövrdə Azərbaycana belə bir rəhbər lazım idi. Azərbaycanı keçmiş Sovet İttifaqında yalnız və yalnız Heydər Əliyevə görə tanıyırdılar. Xalqımızın xilaskarı kimi, əvəzsiz lider kimi vətənini dünyaya tanıdan Heydər Əliyev 1993-cü ildən Azərbaycana ikinci dəfə rəhbərliyi zamanı çoxdan ürəyində saxladığı, arzusunda olduğu bir məsələni həyata keçirmək üçün əzm və fədakarlıq göstərdi. Azərbaycanı müstəqil respublika kimi yenidən qurmaq, inkişaf etdirmək, bütün dünyada müstəqilliyini bəyan etmək onun ən ümdə arzusu, amalı, istəyi idi. Azərbaycan xalqının qüdrətli oğlunun tarixi xidmətlərindən danışarkən hansı sahədən başlasan mütləq azərbaycançılıqdan, vətənpərvərlikdən, xalqa dərin məhəbbətindən söhbət salmamaq mümkün deyil. Xalqın tələbi ilə 9 iyunda Bakıya qayıdan ulu öndər iyunun 15-də Ali Sovetin sədri seçildi. Elə həmin gündən başlayaraq bacarıqlı siyasətçi Azərbaycanın problemlərini, ölkədə baş verən hadisələri ardıcıl və planlı şəkildə yoluna qoymağı yüksək bacarığı ilə təsdiq etdi. 1993-cü ildə hakimiyyətə gəlişilə Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdi, Gəncə qiyamı, cənubda Ə. Hümbətovun "Talış-muğan" respublikası xülyası, Bakı yaxınlığında Navahi kəndində vətəndaş müharibəsi dövlətimizi parçalayırdı. Lakin Heydər Əliyevin uzaqgörən bacarıqlı siyasəti nəticəsində bütün bunlar sülh yolu ilə həllini tapdı. Qardaş qanı axmadan Heydər Əliyev siyasəti zəfər çaldı, uğur qazandı. 1993-cü il iyunun 15-i tariximizə Milli Qurtuluş Günü kimi həkk olundu. Heydər Əliyevin gördüyü işlər xalqa ümid, Azərbaycana can verdi. 1993-cü il iyunun 15-də xalqın tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev müstəqil Azərbaycanın memarı kimi tarixdə parlaq və şərəfli bir səhifə açdı. Sülh elçisi kimi xalqın inam, ümid mənbəyi olan Heydər Əliyev müdrikliyi nəticəsində respublikamızda çox qısa bir zamanda hər şey yaxşıya doğru dəyişdi, Azərbaycan xalqının gücü bir yerə toplandı. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması, hərtərəfli geniş planlı iş aparılması, içtimai-siyasi, sosial-iqtisadi potensialın artması məhz 1993-cü il iyunun 15-dən başladı.

Dahi şəxsiyyətin irsini təbliğ etmək, gələcək nəsillərə çatdırmaq, tariximizə həkk etdirmək məqsədilə Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində daimi sərgi yaradılmışdır. Daimi ekspozisiyada Heydər Əliyevin bütün həyatı kitablarda və fotolarda öz əksini tapır. Demək olar ki, dahi şəxsiyyət haqqında nəşr olunan bütün kitablar muzeyimizin ekspozisiyasında xüsusi yer tutur. Elə bu yerdə Heydər Əliyevin sözü yadıma düşür: "Həyatın mənası insanın çox və ya az yaşamasından ibarət deyil, onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır". Bəli, necəki xalqın böyük oğlu Heydər Əliyev bütün türk dünyasına nümunə və örnək oldu.

**İlhamə Seyidova,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi.**

# Gənclər arasında vətənpərvərlik hissi artırılır

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İctimai Birliyi tərəfindən həyata keçirilən "Vətənpərvər ol, vətən qarşısında borcunu bil" layihəsi davam edir. Layihə çərçivəsində ilk seminar Qəbələdə təşkil edildi.

Seminarda Qəbələ rayon İcra Hakimiyyətinin nümayəndəsi Azər Şirinov, Qəbələ rayon Gənclər və İdman İdarəsinin nümayəndəsi Mübariz Ağayev, Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin direktoru Eyvaz Kazımov çıxış edərək gənclər arasında vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi, vətənə sədaqət, azərbaycançılıq məfkurəsinin təbliği istiqamətində belə layihələrin vacibliyini qeyd etdilər.

Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İctimai Birliyinin sədr müavini Anar Məhərrəmov layihə haqqında seminar iştirakçılarına geniş məlumat verdi. Qeyd etdi ki, layihənin əsas məqsədi gənclərlə vətənpərvərlik istiqamətində görüşlərin keçirilməsinə, gənclər arasında vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsinə, milli mənlik şüurunun formalaşdırılmasına, vətənə sədaqət, azərbaycançılıq məfkurəsinin təbliği üzrə seminarların təşkili istiqamətinə yönləndirilmişdir.

Daha sonra çıxış edən layihənin eksperti Ümüdvar Həsənov gənclər arasında vətənə məhəbbət hissinin artırılması, gənclər arasında vətənpərvərlik və vətəndaşlıq hisslərinin gücləndirilməsi, gənclər arasında dövlət rəmzlərinin sevilməsinin təbliği, gənclər arasında milli mənlik şüurunun formalaşdırılması, hərbi vətənpərvərlik ruhunun gənclər arasında təbliği, gənclərin şüurunda vətənə sədaqət, azərbaycançılıq məfkurəsinin tam bərqərar edilməsi, gənclər arasında Azərbaycan tarixini, coğrafiyasını, musiqisini, adət və ənənələrinin öyrənilməsini təbliğ etmək və s. haqqında geniş məlumat verdi.

**Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İctimai Birliyinin mətbuat xidməti.**